**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# İSLAMDA VƏ XRİSTİANLIQDA ETİK DAVRANIŞ VƏ ÜNSİYYƏT MƏDƏNİYYƏTİ

İxtisas: 7214.01 – Dinin tarixi və fəlsəfəsi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Elxan Firudin oğlu Abdullabəyov**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2021**

Dissertasiya işi AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Şərq-Qərb" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Filologiya elmləri doktoru, akademik<br>**Vasim Məmmədəli oğlu Məmmədəliyev** |
| Rəsmi opponentlər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Lalə Cəfər qızı Mövsümova** |
| | Filologiya elmləri doktoru, professor<br>**Nəsrulla Naib oğlu Məmmədov** |
| | Filologiya elmləri doktoru, dosent<br>**Nəsib Cümşüd oğlu Göyüşov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD-4.03 Birdəfəlik Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri: ______________ | Fəlsəfə elmləri doktoru, dosent<br>**Zəkiyyə Ağababa qızı Əbilova** |
| Dissertasiya Şurasının elmi katibi: ______________ | İlahiyyat üzrə fəlsəfə doktoru, dosent<br>**Məmmədəli Allahverdi oğlu Babaşlı** |
| Elmi seminarın sədri: ______________ | Fəlsəfə elmləri doktoru, professor<br>**Əsədulla Cuci oğlu Qurbanov** |

# TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

***Mövzunun aktuallığı və işlənmə dərəcəsi.*** Dünya dinlərindən iki ən mühümü – xristian və islam dinində etik normalar və ünsiyyət mədəniyyətinin elmii-nəzəri baxımdan araşdırlıması həm müasir Azərbaycanın multikulturalizm modeli, həm də ümumbəşəri dəyərlər baxımındam xüsusi aktuallıq kəsb edir. Ötən minilliklər ərzində qeyd edilən sahədə qarşılıqlı münasibətlərin praktikası dinlər arasındakı dözümsüzlüyü bir növ təsdiq edir. Səmavi dinlər insanları vahid Allaha etiqad etməyə çağırmaqla yanaşı, həm də özlərinin mənşə etibarı ilə peyğəmbərlər vasitəsilə meydana çıxdıqlarını təsdiq edirlər. Beləliklə, birlik üçün bütün ideoloji ilkin şərtlər mövcuddur. Eyni zamanda etiraf etməliyik ki, hətta eyni bir din çərçivəsində belə tam birlik mövcud deyildir. Bu ziddiyyətlər demək olar ki, hamıya yaxşı məlum olduğundan, üzərində çox dayanmağı zəruri hesab etmirik.

Tarixi inkişafın müəyyən mərhələlərində konkret dinlər, məzhəblər arasındakı ziddiyyətlər problemi daha da aktuallaşdırmışdır. Qeyd edək ki, ötən yüzilliyin əvvəlində və ortalarında yəhudilik və xristianlıq, islam və xristianlıq arasındakı münasibətlər maksimum dərəcədə gərginləşmişdi. Məsələn, Şərqi Avropada, Rusiyada və Ukraynada yəhudilərə qarşı talanlar dalğası geniş yayılmışdı. Almaniyadakı yəhudilər əleyhinə çıxışlar Holokost adlanan hadisə ilə – 6 milyon Avropa yəhudisinin məhv edilməsi ilə nəticələnmişdi.

Çoxsaylı avropalıların müsəlmanların dünyagörüşünə yüksək qiymət verdiyini, islamı qəbul etdiyini və onun mənəvi dəyərlərini təbliğ etməsinə baxmayaraq, keçən əsrdən antiislam isteriyası qızışdırılmaqdadır. Belə bir şəraitdə *mədəniyyətlərarası, sivilizasiyalar və dinlərarası dialoqun zəruriliyiniin əsaslandırılması kontekstindən də* mövzunun tədqiqi mühüm aktuallıq kəsb edir. Belə ki, müxtəlif sivilizasiyaların nümayəndələri arasındakı qarşılıqlı anlaşma yalnız etik-əxlaqi prioritetlərin ədalətliliyinin və ümumbəşəri mənəvi dəyərlərinin əsas götürülməsi şəraitində mümkündür. Beləliklə, islam və xristianlıq kimi dünya dinlərinin və onlardakı mövcud məzhəblərin etik məzmununun araşdırılması

müasir, qloballaşan dünyada xüsusi əhəmiyyət kəsb edir. İlkin mənbələrlə iş interpretasiya edilmədən, mətnlərin etik dəyərlərini aşkara çıxarmağa imkan verir.

***Tədqiqat işinin obyektini*** islamın və xristianlığın müqəddəs mətnləri təşkil edir.

***Tədqiqat işinin predmeti*** bu mətnlərin etik-əxlaqi məzmunu və ünsiyyət mədəniyyəti haqqında fikirlərdir.

***Tədqiqatın əsas məqsədi*** islam və xristianlıq dünyagörüşü baxımından insan varlığının mahiyyətinin fəlsəfi dərkinin eyni olmasından bəhs etməyə imkan verən fundamental etik-əxlaqi prinsiplərin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqat nəticəsində aşağıdakı konkret məsələlər öz həllini tapmışdır:

a) tədqiqatın elmi-nəzəri prinsipləri müəyyən edilmişdir;
b) etik-əxlaqi prinsiplərin qaynaqlandığı fəlsəfi postulatların müəyyən edilməsi məqsədilə müqəddəs Quran və hədislər oxunmuşdur;
c) xristianlığın əsas etik-əxlaqi normalarını aşkara çıxarmağa imkan verən Əhdi-Cədid fəlsəfəsinin mahiyyətini öyrənmək məqsədilə islam və xristianlığa aid ədəbiyyatlar oxunmuşdur;
d) islam və xristianlıq etikasının ümumi və fərqli cəhətlərinin müəyyənləşdirilməsinə cəhd göstərilmişdir;
e) tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və mühüm elmi-nəzəri nəticələr çıxarılmışdır.

***Tədqiqatın elmi yeniliyi*** mövzunun ilk dəfə bu şəkildə təfsirçi ilahiyyat ədəbiyyatına deyil, ilk növbədə müqəddəs kitablardakı mətnlərə istinadən islam və xristianlığın etik normalarının elmi-fəlsəfi aspektdən müəyyənləşdirilməsi, müqayisəli təhlil süzgəcindən keçirilərək, ümumi və fərqli cəhətlərinin təqdim edilməsindən ibarətdir. Etik normalar fəlsəfi, elmi dünyagörüşü postulatları sistemi ilə bilavasitə əlaqəlidir. İnsan həyatının mənəvi-əxlaqi bünövrəsinin üçlük modeli araşdırılmış, əsas islam və xristian mətnlərinin mənəvi-əxlaqi-etik məzmununun identik nüvəsi müəyyən olunmuşdur.

***Tədqiqatın elmi-nəzəri əhəmiyyəti*** öyrənilən mətnlərin fəlsəfi əsaslarının aşkara çıxarılması, dini dünyagörüşü modellərinin etik-əxlaqi məzmununun müəyyənləşdirilməsi, ümumi və fərqli cəhətlərin

tutuşdurulması və nəzəri mühakimələrin irəli sürülməsi üçün əsas götürülməsidir.

***Tədqiqatın praktik-əməli əhəmiyyəti*** onun materiallarından və nəticələrindən din tarixinə, əsas dünya dinlərinin fəlsəfəsinə həsr edilmiş digər işlərdə istifadə olunması imkanından, dünya dinlərinin məzhəblərini əsasən əhatə edən ümumi mənəvi təməldən bəhs etməyə imkan verən mənəvi-intellektual potensialın aşkara çıxarılmasından ibarətdir. Bundan əlavə, tədqiqatın nəticələrindən respublikamızın ali məktəblərində dinlərin tarixi, fəlsəfəsi, sosiologiyası, psixologiyası və fenomologiyası, şərqşünaslıq, fəlsəfə, etika və mədəniyyətşünaslıq, dinşünaslıq və islamşünaslıq sahələrində ümumi və xüsusi fənlərin tədrisi zamanı istifadə oluna bilər.

***Tədqiqatın metodologiyası.*** Aparılan tədqiqatın elmi-metodoloji əsasını *araşdırma və keyfiyyət metodologiyaları təşkil edir.*

***Tədqiqat metodları.*** İşdə əsas etibarı ilə təsvir, təhlil, deduksiya, induksiya, analiz, sintez və müqayisə kimi ümumelmi metodlardan istifadə olunmuşdur.

***Tədqiqat mənbələri.*** Tədqiqat aparılması üçün əsas mənbələr qismində müqəddəs Quranın, hədislərin, Əhdi-Ətiq və Əhdi-Cədid kitablarının, islama və xristianlığa dair ədəbiyyatın mətnlərindən, habelə tarixi və fəlsəfi ədəbiyyatdan dinşünaslığa və islamşünaslığa aid tədqiqatlardan istifadə olunmuşdur.

***Problematikanın tədqiq edilməsi dərəcəsi.*** *Nəzəri problemlər sırasında* elə sahələr mövcuddur ki, onların öyrənilməsi və ya tədqiqedilmə dərəcəsi haqqında birmənalı danışmaq sadəcə, qeyri-mümkündür. Onlar yüz minlərlə deyil, milyonlarla əsərləri ehtiva edir. Çünki minilliklər ərzində xeyli dərəcədə böyük sayda araşdırmaçılar onlara müraciət etmişlər. Hətta əgər tədqiqat predmeti kimi onlarla qovuşan sahələr seçilibsə belə, onlardan yan keçmək mümkün deyildir. Elmi-fəlsəfi biliyin belə problemli sahələrinə əsas dünya dinlərinin etikası və metafizikası da aiddir. Əgər əxlaq haqqında elm olaraq etika ən qədim dövrlərdən bəri fəlsəfi biliklərin mühüm bir hissəsi sayılırsa, dini-islami etika xeyli dərəcədə daha mürəkkəb bir sahə kimi təsəvvür olunur. Çünki faktiki olaraq

intellektual potensiala malik prosesin iki müstəqil sahəsi əsasən etik və dini sferaları özündə birləşdirir. Birinci proses insan cəmiyyəti üzvlərinin qarşılıqlı əlaqəsinin, insanların bir-birinə, ətraf aləmə, təbiətə, bitkilərə və heyvanlara olan münasibətinin optimal modellərinin müəyyənləşdirilməsinin qanunauyğunluqları mexanizmi üzərində elmi nəzəriyyələr qurmaq cəhdidir. İkinci proses dinin – islamın əsas ehkamları və yaşayış şəraiti yaradılmasının empirik olaraq müəyyənləşdirilən optimal modelləri arasında qanunauyğun dialektik əlaqənin müəyyən edilməsi təşəbbüsünü ifadə edir. Etika problemləri hələ qədim dövrlərdən mövcud idi. Yunan filosofu Aristotelin etikaya dair "Evdemova etikası", "Nikomaxova etikası", habelə "Böyük etika" kimi xüsusi əsərləri meydana çıxmışdı. Etika problemləri R.Dekart, F.Bekon kimi mütəfəkkirlər tərəfindən də tədqiq olunmuşdur. Q.V.F.Hegelin yaradıcılığının ilkin dövründə "İsusun həyatı" və "Xristianlıq mənəviyyatı və onun taleyi" kimi əsərləri meydana çıxmışdı. Sonralar o, öz mükəmməlliyinə görə unikal əsər olan "Dinin fəlsəfəsi" əsərini yaratmışdır. Demək olar ki, ötən dövrlərin bütün görkəmli mütəfəkkirləri etikanın din ilə birbaşa əlaqəli olmasına diqqət ayırırdılar. İslam etikası təkcə müsəlman alimlərinin deyil, həm də xristian filosofların tədqiqat obyektinə çevrilmişdi. Bu cəhətdən A.Y.Krımskinin, A.Metsin, D.Surdelin və J.Surdelin, L.R.Syukiyaynenin, A.M.Şimmelin, V.V.Lebedevin, A.M.Delkambrın, T.E.Qafarovun, A.A.Maududinin, Y.V.Muzıkinanın, A.V.Polosinin, A.V.Smirnovun və başqalarının əsərlərini qeyd etmək olar. Bunlar da klassik əsərlərə çevrilmişdi. İslam etikası, tarixi və mədəniyyəti sahəsində aparılan çoxsaylı elmi tədqiqat işləri arasında araşdırılan mövzu kontekstində hər hansı birini xüsusi seçib ayırmaq mümkün deyildir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan üçün akademik V.M.Məmmədəliyevin XX əsrin sonu və XXI əsrin əvvəllərində yaratdığı əsl maarifçilik funksiyası daşıyan əsərləri xüsusi əhəmiyyət kəsb edir. Həmçinin N.Abdullayevanın, C.Cəmşidovun, A.Əhmədovun, R.Əliyevin, M.Əliyevin, A.Fərhadovun, S.M.İbrahimovun, R.İlyasoğlunun, F.Qəzənfəroğlunun, Ş.Məcidovanın, L.X.Rahiminin, M.Verdiyevanın, Ə.C.Qurbanovun və başqalarının əsərlərində də

islam etikasının, dinşünaslığın və islamşünaslığın müxtəlif aspektləri araşdırılmışdır.

Sırf xristian etikası sahəsinə aid əsərləri də seçib ayırmaq xeyli dərəcədə çətindir. Çünki xristian əxlaqı iki min ili əhatə edən bir dövr ərzində alimlərin diqqət mərkəzndə olmuşdur. Tədqiqat mövzusuna bilavasitə aidiyyəti olan elmi işlərdən A.Avqustinin, Y.Bemenin, Q.V.F.Hegelin, F.Bekonun, R.Dekartın, Y.Xyoyzinqinin, E.Blavatskayanın, V.Veliçkinanın, L.P.Karsavinin, S.Q.Lozinskinin, N.O.Losskinin, N.M.Nikolskinin, M.E.Peskovun, X.M.Veqasın, Q.Florovskinin və digərlərinin əsərlərini qeyd etmək olar.

***Tədqiqatın işçi fərziyyəsi.*** Dünya dinlərinin (xristiianlıq və islam) etik əsaslarına dair müddəaların üzə çıxarılması aparılan tədqiqatın başlanğıcı, ilkin şərtidir. Din-islam kimi müəyyən edilən baxışlar sistemi etik əsaslara malikdir. Buna görə də bu və ya digər dini sistem haqqında mühakimə yürüdərkən, onları ehkamlar sistemi kimi deyil, insanın davranışını nizamlayan, onun mənəvi tərbiyəsinə yönəlmiş əxlaqi və mənəvi prinsiplər sistemi kimi qavramaq lazımdır. Mahiyyətinə görə təbiətlə, heyvanlar aləmi ilə üzvi surətdə bağlı olan insan, ona irsi olaraq xas olan, onun dünyaya münasibətində dominant rol oynayan instinktlərə malikdir. Xristianlıq özünün əsas dünyagörüşü postulatının əsasında dərin etik-əxlaqi məzmun kəsb edir. Burada İsus Xristosun özünü bəşəriyyətə görə və insanlıq naminə qurban verməsi bəyan olunur. Beləliklə, özünüqurbanvermə və ya fədakarlıq prinsipi xristianlığın əsas fəlsəfi-etik müddəasına çevrilir. Əgər İ.Xristos bəşəriyyətin günahlarını yumaqdan ötrü özünü qurban verirsə, onda hər bir insan da bəşəriyyətin rifahı üçün bütün fədakarlığa hazır olmalıdır. Ən əsası odur ki, fədakarlıq prinsipinin əsasında məhəbbət ideyası dayanır. Xristianlığa əsasən, İ.Xristos bəşəriyyətə olan sevgisinə görə, özünü qurban verən Məsihadır, Məsihdir. O, təklikdə hamının əvəzinə edama gedir. Buradan da xristianlıq üçün təməl daşı rolunu oynayan mərhəmət və şəfqət anlayışı önə gəlir. Bütövlükdə xristianlıq etikası mərhəmət, şəfqət və iltifat etikası kimi formalaşır. Onun bütün konkret normaları mərhəmət prinsipinin konkret açıqlamaları kimi qiymətləndirilə bilər.

İslamda isə Ulu Yaradanın özü rəhmli və mərhəmətli olaraq qeyd olunur. Beləliklə, mərhəmət ilahi atributun əlçatmaz yüksəkliyinə qaldırılır. İslamda ilahi münasibətin insan münasibətinə ekstrapolyasiyası modeli mövcuddur. Əgər Allah insanlara münasibətdə mərhəmətlidirsə, deməli, insanlar da bir-birlərinə qarşı mərhəmət göstərməlidirlər. İslamda insana görə məsuliyyət əxlaqi prinsipi mövcuddur. Hədislərdə deyilir ki, Allah insanı yaradarkən, öz üzərinə məsuliyyət götürmüşdür. Məsuliyyət hissinin mahiyyəti ondan ibarətdir ki, Allahın rəhmi onun qəzəbindən üstündür. İslamda dinin əxlaqi məzmununun əsasını təşkil edən bu minnətdarlıq prinsipi yüksəkdə dayanır. Hər şeyə görə minnətdar olmaq lazımdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, yaxşılıqları unutmaq olmaz.

İslam və xristianlıq fərqliliklə bərabər, ümumi əxlaqi əsasalara da malikdir. Fundamental fərqlər sırasına ilk növbədə Allahın statusunun şərh edilməsi ilə bilavasitə bağlı olanlar aiddir. Etik uyuşmazlığın metodoloji əsasını məhz bu təşkil edir. Həmçinin insanlar arasındakı qarşılıqlı münasibətlər modeli bir çox cəhətlərdən eynidir, hətta bəzi etik tələblər hərfi mənada üst-üstə düşür. Ancaq nə müqəddəs Quranı, nə də İncili yalnız hərfi mənada qavramaq, dərk etmək düzgün deyildir. Çünki onların hərfi mənada oxunuşu ziddiyyətlərə səbəb olur. Zənnimizcə, bu cür ziddiyyət kimi görünənlərdən ən başlıcası mərhəmət və cəza arasındakı uyğunsuzluqdur. Mətnlərdə hər dəfə Uca Yaradanın hüdudsuz mərhəmətindən, eyni zamanda da qaçılmaz cəzadan söhbət gedir.

***Müdafiəyə çıxarılan müddəalar.***

1. İstənilən dini sistem etik sistem kimi meydana çıxır və inkişaf edir; əxlaqi məzmun dini – islamı tamamilə əhatə edir və bu mənada etika dini – islami kontekstdə qlobal xarakter kəsb edir.
2. Xristianlıq və islam geniş xalq kütlələrinin şüurunun nizamlanmasına yönəldilmiş mənəviyyat ideyasını ehtiva edir. Buna görə də dinə – islama qədərki dövr bir növ cəhalət və vəhşilik dövrü, yəni mənəviyyatsızlıq zəmanəsi kimi dəyərləndirilir.
3. İslam və xristianlıq arasındakı məlum fundamental fərq etik

xarakter daşıyır. Xristianlıqda İsus Xristosa ilahi mahiyyət verilməsi, İslamda isə Allahdan başqa hər hansı bir varlığın ilahi mahiyyətindən söhbət açılmasının yasaq edilməsi faktı mövcuddur. Bu da əxlaqi-etik anlama müvafiq əxlaqi-etik şərh tələb edir. Beləliklə, islamın xristianlıqdan fundamental fərqi etik xarakter daşıyır və metodoloji uyğunsuzluğu qabaqcadan müəyyənləşdirir.

4. İslamın və xristianlığın fundamental cəhətdən uyğunsuzluğu nöqteyi-nəzərindən xristianlığın ilkin mənbəyi, yəni İncilin özü xüsusi əhəmiyyət kəsb edir. İncil mətnləri onu təsdiq edir ki, İ.Xristos daim və məqsədyönlü şəkildə Allahdan məsafə saxlayır.
5. İslam və xristianlıq Allah və insan arasındakı qarşılıqlı münasibətləri tənzimləyən əsas məsələyə görə bir-birindən fərqlənsə də, bu dinlərdə insanlar arasındakı münasibətlər əsasən identik modellər əsasında dərk olunur, bu isə qarşılıqlı dialektik anlaşma üçün əsasdır.

***Tədqiqatın aprobasiyası.*** Müstəqil Azərbaycan Respublikası MEA-nın Şərqşünaslıq və Fəlsəfə institutlarında keçirilən elmi-nəzəri seminarlarda, konfranslarda, ali məktəblərarası, beynəlxalq simpoziumlarda dissertasiyanın əsas müddəalarına dair müntəzəm olaraq məruzələrlə çıxışlar edilmişdir. Tədqiqatın məzmunu, əldə olunan nəticələr müəllifin ölkə daxilində və xaricdəki elmi məcmuələrdə çap edilən məqalə və tezislərində öz əksini tapmışdır.

***Dissertasiyanın strukturu.*** Dissertasiya giriş, nəzəri müqəddimə (11063), iki fəsil (I-127831, II-87840), dörd yarımfəsil, nəticə (8622) hissələrindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 251621 şərti işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Giriş hissəsində tədqiqat mövzusunun aktuallığı araşdırılır, onun məqsəd, vəzifə və metodlarından bəhs edilir, işin elmi yeniliyi, nəzəri və əməli əhəmiyyəti təhlil olunur, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir.

Dissertasiyanın birinci fəsli “İslamın etik-əxlaqi normaları”

adlanır və iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil “Müqədəs Quranın etikası” adlanır. Burada Quranın müxtəlif müvafiq surələri və ayələri nəzərdən keçirilir, onların etik-əxlaqi prinsipləri araşdırılır. Bildirilir ki, İslam dünya dini kimi bütün müsəlmanların həyat və fəaliyyətini əhatə edir. İnsanın həyatı elə qurulmuşdur ki, o, etik çərçivələrdən kənarda mövcud ola bilməz. İnsan nə ilə məşğul olursa-olsun, öz fəaliyyətinə əxlaqi məna və məzmun verir. Hələ çox qədimlərdən fəaliyyətin ən primitiv növləri belə etik normaların yaradılmasını stimullaşdırırdı. O, insanda bir tərəfdən öz tərəfdaşına, digər tərəfdən isə ov obyektinə – heyvana şüurlu münasibət tərbiyə edir. Qədim ovçular güclü heyvana dərin hörmət bəsləmiş və hətta ona sitayiş etmişlər. Belə mənəvi-əxlaqi münasibəti insan həmçinin bitki aləminə qarşı da hiss etmişdir. Bitki kultu demək olar ki, bütün xalqlarda mövcuddur. Göründüyü kimi, ətrafda olan hər şeyə etik nöqteyi-nəzərdən düşünülmüş, hörmətli, isti münasibətin təməli insanda hələ ibtidaidən mövcud olmuşdur. Demək olar ki, bu, onun təbiətindən, mahiyyətindən qaynaqlanan proqrama uyğun gəlir. Bu mənada, istənilən bir din, o cümlədən, xüsusilə islam dini etnosun dünyagörüşünü, eləcə də ictimai, siyasi, mədəni və mənəvi həyatın dərk edilməsinin əxlaqi məzmununu şərh edən, sistemləşdirən və zənginləşdirən etik dəyərlər sistemi kimi qiymətləndirilə bilər.

İslam buddizmdə, iudaizmdə və xristianlıqda olduğu kimi, insan mənəviyyatına müraciət edir. Bu baxımdan hər hansı din çərçivəsində insana müraciətin özü onun mənəvi aləminə hörmət kimi qiymətləndirilməlidir. Çünki istənilən müraciət anlama, dərketmə qabiliyyətini nəzərə almaqla edilir. Müqəddəs Quran öz məzmununu etik müstəvidə reallaşdırır. Bu, o deməkdir ki, Quranın hər bir surəsi, ayəsi onu oxuyan insanın vicdanına yönəlmişdir. Quranın bütün surə və ayələrini iki hissəyə bölmək olar. Bu hissələrdən biri bilavasitə etik normaları özündə ehtiva edir. Digərində isə müvafiq təhlil və normaların nisbətən görünən səviyyəyə gətirilməsi nəzərdə tutulur. Həmin bu ikinci hissə dərin fəlsəfi təhlil tələb edir. Lakin normaların aydın şəkildə ifadə olunduğu birinci hissə də şərh oluna bilər. Görünür ki, məhz bu səbəbdən ekzegetik təhlil istənilən halda hermenevtik təhlillə

tamamlana bilir. Quranın etikası "Əl-Fatihə" adlı birinci surədə təqdim olunur. "Fatihə" surəsi həqiqətən də "Kitabı Açan" surədir. Həmin surənin beşinci ayəsində Allaha ünvanlanmış "Bizi düzgün yola yönəlt" xahişi əks olunur. Bu kontekstdə *düzgün yol* mənəvi həyatı, Allahın özü tərəfindən qoyulmuş normalara müvafiq gələn həyatı ifadə edir.

Etik normalar nöqteyi-nəzərindən Quranda "Loğman" surəsi xüsusilə seçilir. Surədə Loğmanın müdrikliyi qeyd olunur: "Biz hələ əzəldən Loğmana müdriklik bəxş etmişik: Allaha şükür et! Kim şükür edirsə, o, özü üçün şükür edir, kim nankordursa isə.... Həqiqətən, Allah – zəngindir, şöhrətlidir!"[1] Xalq arasında Loğmanla bağlı məlumatlar eramızdan min il əvvələ aiddir. Surə oğula nəsihət formasında qurulub, buna görə də aydın şəkildə didaktik xarakter daşıyır. Bu surənin hər bir ayəsinin dini-islami etika aspektində şərhi tələb olunur. "Loğman öz oğluna nəsihət verərək deyir: "Ey mənim balam! Allaha şərik qoşma: axı çoxallahlıq – böyük haqsızlıqdır".[2]

Bu ayənin xarakterik cəhəti səhv haqqında, yanılma haqqında deyil, haqsızlıq barədə məlumat verilməsidir. Həm də bu haqsızlığın *böyük* olduğu qeyd olunur. *Böyük haqsızlıq* ifadəsinin bundan əvvəlki kontekstin fonunda izahı onu düzgün dərk etməyə imkan verir. Böyük haqsızlıq nankorluqdan ibarətdir. Loğman müdrikdir, çünki o, şükür edir, o, bütün varlığı ilə minnətdarlıq hissi keçirir. Qeyd olunan model asanlıqla insanların yaşayış tərzinə ekstrapolyasiya olunur. İnsan üçün ona həyatda və taleyində tanış olan şeyi dərk etmək daha asandır. Azərbaycanlılarda yaxşılığı unudan adam üçün *çörəyi dizinin üstündə* ifadəsi işlədilir. Bizim fikrimizcə, bu, ən aşağı səviyyəli ifadələrdəndr. Belə insana ətrafdakılar tərəfindən zərrə qədər də hörmət göstərilmir. Bu, hamıya aydındır və heç kəsdə suallar doğurmur. İnsan haqqında "*çörəyi dizinin üstündə"* ifadəsini işlətmək onun xarakterini hərtərəfli açıb göstərir. İstənilən adamda bu ifadə artıq alt şüur səviyyəsində və dərhal kəskin neqativ hiss oyadır. Öz milli mənsubiyyətindən və hansı mədəniyyətə bağlılığından asılı olmayaraq, hər kəs

[1] Коран. Перевод с арабского. И.Ю. Крачковского М., СП ИКИА, 1990, с.338.
[2] Əl-Quranul Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev. Bakı, 2005, s.339.

nankorluğun nə demək olduğunu yaxşı bilir. Buna görə rus dilində də "*черная неблагодарность" (qatı nankorluq)* ifadəsi mövcuddur. *Qatı* epiteti təkcə nankorluğun xarakterini deyil, həm də etdiyi yaxşılığa qarşı pislik görən insanın keçirdiyi hissi çox dəqiq ifadə edir. Bu vəziyyəti insan və onun Yaradanı arasındakı münasibətə də aid etmək olar. Bu halda Uca Tanrını ifadə edən sözlər arasında məhz *"Yaradan"* sözü daha dəqiq uyğun gəlir. Yəni yaradılan məxluqun minnətdarlığı nəzərdə tutulur. Allahın adları onun insana münasibətində hüdudsuz xeyirxahlığının keyfiyyətini ifadə edir. Məsələn, rəhmli, mərhəmətli, ruzi verən, hamının ehtiyacı olduğu Varlıq və i.a. Lakin "Yaradan" sözü bütün dinlərdə və hətta dindən xeyli uzaq olan insanlar tərəfindən də işlədilir. Beləliklə, istənilən bəndə üçün Allah ilk növbədə onu yaradandır. Ona görə də, etik nizamın insan qarşısında ən əsas tələbi bundan ibarətdir ki, o, minnətdarlıq bildirsin, dünyaya gəlişinə görə kimə borclu olmasını yaddan çıxartmasın. Təsadüfi deyildir ki, Quran da dinsizlərin ünvanına öz ittihamlarını onları Allahsızlıqda deyil, nankorluqda ittiham etməklə başlayır.

Çoxallahlıq kateqoriyası kimi, nankorluq da günah kontekstində şərh olunur. Çünki Tanrıların çoxluğuna inanmağın özü də əsl Yaradana inanmamağı ifadə edir. Çoxallahlığın məntiqi aydındır. Həqiqi müsəlmanlar inanırlar ki, Allah üçün qeyri-mümkün olan heç bir şey yoxdur. Allah böyükdür və qüdrətlidir. Çoxallahlıq artıq ona görə küfrdür ki, öz əsasında vahid, yeganə Tanrının hər şeyə qadir olmasını inkar edir. Politeizmdə hər bir Tanrı nəyəsə görə məsuliyyət daşıyır. Bu, alt şüur səviyyəsində belə bir inam ifadə edir ki, bir Tanrı hər şeyi etməyə qadir deyildir. Ona görə də fövqəltəbii qüvvələr funksional şəkildə bölünür. Başqa sözlə, onların hər birinin öz işi vardır. Quranda müxtəlif səbəblərə görə hər dəfə valideynlərə ehtiram göstərməyin zəruriliyi vurğulanır. "Loğman" surəsində deyilir: "Biz insana öz valideynlərinin qayğısına qalmağı əmr etdik. Anası onu bətnində, gündən-günə zəifləməsinə baxmayaraq, daşımışdır; onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükr et, axır dönüş Mənədir"[3]. Aydındır ki, Allah insanın valideynlərinə olan münasibətini Özünə olan münasibətə

[3] Quran, səh. 339.

bərabər tutur. Başqa sözlə desək, insanda Allahla yanaşı, öz valideynlərinə qarşı da sevgi, hörmət və böyük minnətdarlıq hissləri olmalıdır. Bu haqlı tələbin fəlsəfi-etik anlamı vahidin çoxla əlaqəsinin modeli kontekstində dərk edilə bilər. Yəni ki, çox – kosmosdur; onun simasında bütün mövcudatın əlçatmaz məqsədəuyğunluğu və ahəngdarlığı təmsil olunmuşdur. Vahid isə keçici varlığı məkanda və zamanda reallaşan buğda dəni kimi olan insandır. Əsl reallıq isə yalnız Allahdır, çünki O, məkan və zaman xaricində və bu çərçivələrdən asılı olmayaraq mövcuddur. “Ərrəhman” surəsində göstərilir: “Küllü mən əleyha fanin uə yəbka uəchu Rəbbikə zul cəlali uə ikram” (26-27-ci ayələr). Akademik İ.Y.Kraçkovskinin rus dilinə tərcüməsində surənin mənası belədir: “Onun üzərində olan hər kəs yoxa çıxar, sənin Rəbbinin siması isə şöhrətlə və ləyaqətlə qalar”.[4]

İslam mənəviyyatı 16-cı ayədə daha açıq şəkildə ifadə olunmuşdur, burada cəmi bir neçə ifadə ilə yer həyatının əsas prinsipləri islam normalarına müvafiq olaraq əhatə olunmuşdur. “İbadətdə israrlı ol, yaxşılığı təşviq et, qadağan olunmuş əməllərdən kənar dur və başına gələnlərə səbrlə döz, axı bu əməllər də möhkəmlikdən xəbər verir”.[5] Gördüyümüz kimi, burada təkcə insanın özünün davranışının modelləri deyil, həm də onun digər insanlara, onu əhatə edən cəmiyyət üzvlərinə münasibəti ilə bağlı vəzifələri də əsaslı şəkildə ifadə olunmuşdur. Bu, çox mühüm məqamdır, çünki sosiallaşma nöqteyi-nəzərindən ən optimal əxlaqi-etik davranış məqamı barədə xəbərdarlıq edilir. Başqa sözlə desək, islam etikası şəxsiyətin özünün qüsursuz davranışını kafi hesab etmir. Əsl yüksək mənəviyyatlı şəxsiyyət xeyirxahlığı ətrafdakılara da aşılamalıdır.

“Loğman” surəsinin 17-ci ayəsinin əxlaqi məzmununun yenidən, başqa cür dəyərləndirilməsi qeyri-mümkündür: “İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib-dolanma. Həqiqətən Allah heç bir özündən razını, özünü öyəni sevmir!”[6] Təkəbbürə yol verilməməsi islam fəlsəfəsi kontekstində

---

[4] Quran, səh. 339.
[5] Yenə orada, səh. 339.
[6] Yenə orada, səh. 339.

təfsir oluna bilər. Bu kontekstdə özü-özlüyündə sual doğuran məsələ insan məğrurluğunun motivləri ilə bağlıdır. Bütövlükdə islam fəlsəfəsi iki əsas tezis üzərində birləşdirilə bilər. Birincisi, Allahın əbədiliyini və hər şeyə qadir olmasını bəyan edir. İkincisi isə insanın Yer üzərindəki mövcudluğunun acizliyi (kövrəkliyi) ilə bağlıdır. Buradan belə bir fundamental sual yaranaır: Aciz bir varlıq ona anlaşıqlı cavab verə bilməz: "Məğrurluq üçün sənə nə əsas verir?". Təkəbbür bütün dinlərdə pislənilir və hər yerdə təkəbbürün pislənilməsi etik normaların əsasını təşkil edir. İ.Y.Kraçkovskinin tərcüməsində isə təkəbbürdən deyil, qürurdan söhbət gedir. X.K.Baranov ərəbcə ''*məxtərə''* sözünü "özünü dartmaq, özünü təkəbbürlü aparmaq" kimi, *"məxtərətun"* sözünü isə "dikbaşlıq" kimi tərcümə edir.[7] Predmet-məntiq nöqteyi-nəzərinə görə, bütün bu anlayışlar müxtəlif davranış tiplərindən və psixikanın vəziyyətindən asılıdır. Məsələn, *özünü dartmaq* cəmiyyətdə davranış tərzinə aid olsa da, təkəbbür insan ruhunun daxili vəziyyətini əks etdirir. Bizim fikrimizcə, ayədə söhbət məhz insanın xarici görkəmindən gedir, *insanlardan təkəbbürlə üz çevirməmək* çağırışı bunu təsdiq edir. İnsan münasibətlərinə dair bütün Quran etikası bu ifadədə özünü daha parlaq şəkildə əks etdirir. Burada cəmiyyət üzvlərinin qarşılıqlı münasibətlərində forma və məzmun məqamlarının bir-birindən ayrılması aşkardır. Forma məqamı zahiri ədəb qaydalarına riayət edilməsi zərurətindən yaranır. İnsanlardan üz çevirməmək, adamlara narazı sifət göstərməmək, özünü aparmağı bacarmaq kimi qəbul olunur. Bunun isə mənəviyyata aidiyyəti yoxdur. Əslində isə, bu, belə deyildir. Birincisi, özünü aparmağı bacarmaq da dərin əxlaqi məzmun kəsb edir. Əgər cəmiyyətin bütün üzvləri özlərini lazımi səviyyədə aparmağı bacarırlarsa, cəmiyyət etik normalar baxımından ideal bir cəmiyyətə çevrilir. İkincisi, özünü aparmağı bacarmaq ətrafdakılara mənfi enerji ötürməmək bacarığının göstəricisidir. Bu tezisdə çox dərin sosiogen məzmun vardır. Məsələ burasındadır ki, pis əhval-ruhiyyə və ya mənfi emosional yük zəncirvarı şəkildə ötürülmək xüsusiyyətinə malikdir. Buna görə də adicə təbəssüm, sosiumun emosional əhval-ruhiyyəsinin köklənməsi üçün ən güclü

---

[7] Баранов Х.К. Арабско-русский словарь. Гос. нзд. иностр. и нац. словарей. М. 1958, стр. 950.

stimul kimi çıxış edə bilər. Burada *keep smiling (gülümsünün)* amerikan imperativini xatırlatmaq yerinə düşərdi. Psixoloqlar özünü müsbət ahəngə kökləməkdən ötrü səhərlər, hətta təklikdə belə güzgü qarşısında gülümsəməyi məsləhət görürlər. Azərbaycanlılar tez-tez uşaqlara "*ağzını əymə!*" ifadəsini təkrar edirlər. Göründüyü kimi, müqəddəs Quran insan cəmiyyətini incə şəkildə bağlayan tellərin qurulması sahəsində çox dərin etik məzmun kəsb edir.

Davranış etikası nöqteyi-nəzərindən növbəti ayə tamamilə heyranedicidir: "Yerişində həddi gözlə, danışanda səsini alçalt: çünki ən çirkin səs – uzunqulaq səsidir".[8] Hər iki buyuruğun iki planda – hərfi və məcazi mənada oxunması tələb olunur. Hər iki planda dərin mənəvi-əxlaqi məzmun aydın şəkildə sezilir. Yəni hərfi mənada oxunuşun və anlamanın da fərdi davranış mədəniyyətinə bilavasitə aidiyyəti vardır. Görünür, *yerişində həddi gözlə* ifadəsi kəskin hərəkətlərdən yayınmaq, müvazinətli olmaq barədə çox sadə nəsihət və ya məsləhəti ifadə edir. Cismani və ruhi hərəkətlərin harmoniyası qarşılıqlı determinizmə gətirib çıxarır. Başqa sözlə desək, cismani hərəkətlərin xarakteri insanın mənəviyyatına, psixi vəziyyətinə təsir göstərir. Əksinə, psixi vəziyyət cismani hərəkətlərin xarakterini, sifət mimikasını, yerişi, addımların ölçüsünü, əl-qol hərəkətlərini və s. qabaqcadan müəyyənləşdirir. *Öz yerişində həddi gözləmək*, onun dərəcəsini və ölçüsünü gözləməyi ifadə edir. Bu zaman aydın olur ki, yerişin dərəcəsini, ölçüsünü, təkəbbürü, özünü yüksək tutmağı və lovğalığı fərqləndirmək nə dərəcədə zəruridir.

Quran surələrinin təhlili bir daha təsdiq edir ki, insanın Allaha münasibətdə əxlaqi borcu onun özünə münasibətində də əxlaqi borcunu qabaqcadan müəyyən edir. Başqa sözlə desək, islam etikası fərdin öz bədəninə və ruhuna münasibətdə öhdəliklərini də əhatə edir. Beləliklə, əxlaqi davranış Allaha münasibətdə şükranlığı və onu yada salmağı, ətrafdakılara xeyirxah münasibəti, özünə münasibətdə öhdəlikləri yerinə yetirməyi tələb edir. Əxlaq qaydalarına riayət edilməsi insanın Yer üzərində rahat yaşamasını təmin edir, çünki o, üç ölçüdə harmoniyanı – insanın Allahla, ətrafdakılarla, öz-özü ilə eyni ahəngdə olmasını təmin edir.

Azərbaycanın ictimai, siyasi və fəlsəfi ədəbiyyatında mənəvi,

---

[8] Quran, səh. 339

etik-əxlaqi tərbiyədən bəhs olunarkən, İslam dininə və onun əsasını təşkil edən müqəddəs Qurana çox önəmli yer verilir. Bu, heç də təsadüfi deyildir. Böyük dövlət xadimi Heydər Əliyev demişdir: "İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.''[9]

Birinci fəslin ikinci yarımfəsli "Peyğəmbərin hədislərindəki etik normalar" adlanır. Etik normaların müəyyən edilməsinin və təfsirinin sadəliyi onunla əlaqədardır ki, onlar hədislərdə ön qatda yerləşir. Başqa sözlə desək, hər bir hədis faktiki olaraq yalnız etik aspektdə oxunur. Mahiyyət etibarı ilə hədislər məhz davranış üçün təlimat vəzifəsini yerinə yetirir və funksional təyinatlarına görə əxlaqi əhəmiyyət daşıyırlar. Hədislərin əhəmiyyəti ondan ibarətdir ki, həqiqi dindarlar özlərini düzgün, Allahın özü tərəfindən müəyyən olunmuş mənəvi qanunlara müvafiq surətdə apara bilsinlər. Göründüyü kimi, islamın özü və onun Quran kimi fundamental mətni əsasən etik məzmundadır. Quran dünyaya yeni dini dünyagörüşü gətirmişdir, onun qəbul edilməsi etik normaların təbliği və mənimsənilməsini nəzərdə tutur. Fikrimizcə, Quran və peyğəmbərin hədisləri də əsasən etik normalar toplusudur. Təsadüfi deyildir ki, etika fəlsəfi elmlərdən biri, bəlkə də birincisi hesab olunur. Etika çox vaxt səthi müşahidə üçün əlçatmaz görünən və təfsir tələb edən dərin fəlsəfi məzmuna malik olur.

40 "Əl-Qüdsiyyə" hədisinin təhlili Ulu Məhəmməd Peyğəmbər tərəfindən əsası qoyulan islam ənənələrinin yüksək etik məzmunundan xəbər verir. Dürüst olaraq peyğəmbərin özündən dinlənilmiş "Əl-Əhədis Əl-Qüdsiyyə" ilə yanaşı, mövcudluğu şübhə doğurmayan daha 160 hədis vardır. Bu hədislər rus dilinə V.Poroxova tərəfindən tərcümə olunmuş və 2000-ci ildə nəşr edilmişdir.[10]

Qeyd olunduğu kimi, Quran və hədislərin etik məzmununu nəyəsə qarşı qoyaraq, bunun haqqında danışmaq çox çətindir, çünki onlar əsasən etik və əxlaqi mahiyyət daşıyır. Onların müsəlmanlar üçün etik çərçivələrdə oxunması, mənimsənilməsi və əməli fəaliyyətdə rəhbər tutulması tələb olunur. Bu mənada əl-Qüdsiyyənin

---

[9] Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, səh. 93-94.
[10] Хадисы пророка. Перев. В. Пороховой. М. Аванта, 2000, стр.192.

birinci hədisi xüsusilə diqqətəlayiqdir: Allah öz məxluqunun yaradılışını təyin edərkən Quranda: "Mənim rəhmim qəzəbimdən üstündür"[11] kəlmələrini təqdim edərək, Öz üzərinə məsuliyyət götürdü. Göründüyü kimi, birinci hədisin yüksək əxlaqi məzmunu tamamilə aydındır. Allah öz üzərinə məsuliyyət götürərək, elə bir yüksək əxlaqi dəyərə malik hərəkət edir ki, onun etik məzmunu insan təsəvvürlərindən xeyli dərəcədə yüksək səviyyədə reallaşır. Yaratma (yaradıcılıq) faktının özü məsuliyyət hissinə səbəb olur. Beləliklə, "yaratma" anlayışının "məsuliyyət" anlayışı ilə əlaqəli olduğu aydın hiss olunur. Bu mətndə verilmiş mənanın açıqlanması, "Yaradıcılıq məsuliyyət tələb edir, yəni yaradılanın firavanlığına qayğı tələb edir" kimi əxlaqi formulu irəli sürməyə imkan verir. Bu formulun təfsiri insan situasiyasına ekstrapolyasiya ilə də qırılmaz surətdə bağlıdır. Məsələn, həyatın qanunları cinslərarası ittifaqları şərtləndirir, lakin nə nikah, nə də onun nəticələri, yəni nəslin artırılması məsuliyyətdən kənarda həyata keçirilə bilməz. Özünə həyat yoldaşı kimi götürdüyü qadına görə kişinin üzərinə məsuliyyət qoyulmuşdur. Kişi həyat yoldaşının firavanlığına, onun sağlamlığına və xoşbəxtliyinə görə Allah qarşısında cavabdehdir. Hədis bir daha təsdiq edir ki, insan Allahın yaratdıqlarına riayət etməyə borcludur.

İkinci hədis bilavasitə etik xarakter daşıyır, burada insan Allahı inkar etməyə və Onu təhqir etməyə görə ittiham olunur.[12] Elə görünə bilər ki, bu hədisdə birbaşa etik məzmun yoxdur. Çünki onun məzmunu yalnız ittihamı ifadə edir. Lakin bu, belə deyildir. İttihamın mahiyyəti mənəviyyatsız davranış faktının müəyyən edilməsindədir. Deməli, hədisdən alınan ibrətamiz nəticə insanın özünü yaxşı aparmasının vacibliyindən ibarətdir. Hədisə görə, Adəmin oğlu Allahın onu heç vaxt ilkin formada yenidən təkrar edə bilməyəcəyini bəyan etməklə, Allahı inkar edir. Amma hədisdə buna belə etiraz olunur ki, ilkin yaradılış təkrardan heç də asan olmamışdır. Allahın insan tərəfindən "təhqir" edilməsi ondan ibarətdir ki, Allahın təkliyinə baxmayaraq, insan Allahın da oğlunun olduğunu bildirir. Hədisdə aktuallaşan assosiasiyalar aydındır. Ona görə də onun məna strukturu kifayət qədər şəffafdır. "Yasin" surəsində insanın adından

[11] Хадисы пророка. Перев. В. Пороховой. М. Аванта, 2000, səh 16.
[12] Yenə orada, səh. 16.

belə bir ifadə səslənir: "Çürümüş hissələri kim dirildəcək"[13] və buna belə bir cavab verilir: "De, Onları ilk dəfə yaradan dirildəcək".[14] Təhqirə gəldikdə isə, burada İsus Xristosun statusuna işarə vurulması aşkardır. Quranın "İxlas" surəsi bilavasitə xristianlığın bu kimi ehkamlarına qarşı yönəlmişdir. Maraqlıdır ki, ilk xristianlar İsus Xristosu nə tanrı, nə də Tanrının oğlu hesab etmirdilər. Hətta IV əsrdə kilsə həyatının əsas hissəsində "arilərin küfrünə" qarşı mübarizə gedirdi. Məlum olduğu kimi, arilər Xristin ilahi mahiyyətini inkar edirdilər. "İxlas" surəsində bir daha təsdiq olunur ki, heç kəs Allaha oxşaya bilməz.

Dissertasiyanın bu bölməsində peyğəmbərin hədisləri ardıcıl olaraq onların əxlaqi məzmunu nöqteyi-nəzərindən təhlil olunur. Qeyd olunur ki, hədislər Quranın əxlaqi normalarının izah edilməsinə xidmət edir. Mənəvi həyatın əsas prinsipləri Allaha şükr etmək, valideynlərə minnətdarlıq, mərhəmət, ətrafdakılara sevgi, düşüncələrin və bədənin təmizliyi, sülhyaratma, yaxınlara qayğı, Allah tərəfindən yaradılana görə məsuliyyət, daim mənəvi cəhətdən mükəmməlləşməlidir.

Dissertasiyanın ikinci fəsli "Əhdi-Cədidin etik məzmunu" adlanır. Həmin fəsil iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil "İncilin etik məzmunu" adlanır. Qeyd olunur ki, Əhdi-Cədidin əxlaqi məzmunu həmişə görkəmli Avropa filosoflarının diqqət mərkəzində olmuşdur. Məsələn, R.Dekart etikanı "ən yüksək və ən mükəmməl elm"[15] hesab edirdi. Q.V.F.Hegel hesab edirdi ki, məhz Xrist tərəfindən insanlar üçün əsl mənəviyyat yolu açılmışdır.[16] F.Bekon mənəviyyatla musiqi arasında paralellər aparır və qeyd edirdi ki, "dissonans müxtəlif tezlikli səslərin əlaqələnməsi ilə əvəz olunanda, dərhal harmoniya yaranır" – bu, musiqinin qanunudur. Amma bu, eyni zamanda etika sahəsində də tətbiq oluna bilir".[17] Xristian dünyagörüşündə İsus təlimi həmişə təbiətdə və insan ruhunda harmoniya yaradan ahəng kimi

---

[13] Quran, səh. 364.
[14] Yenə orada, səh. 364.
[15] Р.Декарт в II томах, т.1. Москва, «Мысль», 1989, стр. 309.
[16] Г.В.Гегель. Философия религии. Т.1. Москва, «Мысль», 1976, стр. 35.
[17] Ф.Бекон. Сочинения. В II томах, т.2. Москва, «Мысль», 1977, стр. 202.

qavranılmışdır. Xristianlığın harmoniyası antik dövrün dissonansını əvəz edir.

Xristian etikasının əsasını İncil və ya kilsə tərəfindən tanınan dörd kanonik İncil kitabları təşkil edir. Bu, Matveydən, Markdan, Lukadan və İoanndan irəli gələn İncillərdir. Bu İncillərdə İsusun həyatı və onun nitqləri təqdim olunmuşdur. Qeyd etmək lazımdır ki, öz etik məzmununa görə İncillər sonrakı xristianlıqdan fərqlənir. Ən əhəmiyyətli fərq ondan ibarətdir ki, xristianlıq İsusu Allahın oğlu – Allah kimi qələmə verir, onu ilahiləşdirir. İncillərdə heç bir yerdə Xristos özünün Allah olduğunu demir. Hətta o, hər dəfə özünün Qadir Allaha xidmət ediyini vurğulayır, öz taleyinin yüngülləşdirilməsinə görə ona dua edir və beləliklə, ondan məsafə saxlayır. Xristin ən mühüm etik prinsipi həqiqi xidmətə cəhddir. Xristos məzmunun forma üzərində üstünlüyünü müəyyən edir. Onun üçün başlıca məsələ formal ibadət deyi, həqiqi inamdır. O, deyirdi ki, vay halınıza, ey ilahiyyatçılar və fariseylər. Siz qabıqlı tabuta bənzəyirsiniz. Bu ifadə bütövlükdə Əhdi-Cədidin devizi kimi işlənilə bilər. “*Qabıqlı tabut”* ifadəsi “rənglənmiş tabut” mənasını da verir. Tabut necə gözəl və zahirən cəlbedici olsa belə, onun içində cəlbedici olmayan nə isə vardır. Məlumdur ki, fariseylər qanunlara hərfi mənada ciddi riayət etməklə fərqlənirdilər. Müqəddəs Yazının böyük bilicilərini *ilahiyyatçılar* adlandırırdılar. İsus dini qaydaları əzbərləmək ehtirasını onların günahı kimi qeyd edir, o, biliyi və bu biliklə fəxr etməyi səmimi və həqiqi inamla qarşı-qarşıya qoyur. Bu prinsip Məhəmməd peyğəmbərin hədislərində də əks olunmuşdur. İlahiyyatçının, şəhidin və səxavətli insanın cəzalandırılmasına dair hədisi yada salmaq kifayətdir. Şəhidə deyilir: “Sən həqiqətən döyüşmüsən. Lakin yalnız ona görə ki, (sənin barəndə) deyə bilsinlər ki, o, cəsur və igiddir. Sənin haqqında belə də deyirdilər”.[18] Habelə ilahiyyatçı və səxavətli varlı da qeyri-səmimilikdə və məğrurluqda ittiham olunur. İslam Allaha şərəf və dünyəvi şöhrət xatirinə deyil, həqiqi xidmətə çağırır. Məhz İsus da Tövrat və İncilin bilicilərini şöhrət qazanmağa cəhd etməkdə ittiham edərək, bu etik prinsipi müəyyən etmişdi. İsusun ən mühüm etik prinsipi ondan ibarətdir ki, insan dinə yox, din insana xidmət etməlidir. Şənbə insan üçündür,

[18] Хадисы пророка. Перев. В. Пороховой М.Аванта, 2000, стр.192.

insan şənbə üçün deyil.

Dissertasiyanın bu bölməsində İncilin Xrist təliminin əxlaqi məzmununu təsdiq edən fraqmentlər ətraflı şəkildə nəzərdən keçirilir. Qeyd olunur ki, İncilin əxlaqi məzmunu hələ ilk başlanğıcda, Yusifin hamilə qalmış Məryəmi necə qəbul etməsinə dair hekayətdə təqdim olunmuşdu. Yusif Məryəmi qəbul etməklə, Musa peyğəmbərin, ər evinə gəlməmişdən qabaq hamilə olmuş qızın ciddi cəzalandırılmasını bəyan edən qanununa zidd hərəkət etmişdi. Buna baxmayaraq, Yusif saleh adlanır. Yusifin ona yazığı gəlir, gizli şəkildə onu evə buraxmaq istəyir. İncil qanun və qaydalara riayət etməkdən yüksəkdə dayanmalı olan mərhəmətə çağırır. Beləliklə, mərhəmət Xrist təliminin birinci dərəcəli mənəvi prinsipinə çevrilir.

Dissertasiyada Dağdakı xütbələrin etik məzmunu ətraflı şəkildə nəzərdən keçirilir. İncil İsusun simasında daim həqiqi inama və humanizmə doğru yönəlmişdir. Bu mənada, İsusun nə barədə danışmasından asılı olmayaraq, Əhdi-Ətiq əxlaqının dəf olunması modeli reallaşır. O, daha böyük və daha çox mənəviyyat tələb edir. Məsələn, İsrailin qədim qanunlarına istinad edərək, İsus Tövratın məlum on buyruğundan birini təşkil edən adam öldürülməsinə yol verilməməsini xatırladır. İsus bundan daha da irəli gedir: "Mən sizə deyirəm ki, hədər yerə öz qardaşına hirslənən hər kəs mühakimə olunmalıdır; kimsə öz qardaşına "raka" deyərsə, mühakimə olunmalıdır; kimsə "ağılsız" deyərsə, o, cəhənnəm oduna məruz qalacaqdır"[19] (Matvey, 5. 21-22). Şərhlərdə qeyd olunur ki, qədim yəhudi sözü olan *raka* "başıboş adam" mənasını bildirir.[20] Beləliklə, xristian təliminin etikası yaxın adamın ünvanına hər hansı bir təhqirə yol verilməsinə icazə vermir, bundan əlavə, hətta yaxın adama hirslənməyin belə mənəviyyata zidd olduğu vurğulanır.

Aşağıdakı fraqmentdə yaxın adama qarşı korrekt və dözümlü münasibətlə bağlı islam dininin tələbi tam şəkildə təkrar olunur: əgər sən qurbangaha öz hədiyyəni gətirərkən orada xatırlasan ki, qardaşın səndən nəyə görəsə inciyib, o zaman öz hədiyyəni qurbangah qarşısında qoy və get əvvəlcə öz qardaşınla barış, sonra

[19] Библия. Книги Ветхого и Нового завета М., Библейские общества 1995, стр.1015.
[20] Yenə orada, səh. 1015.

isə gəl və öz hədiyyəni ver”[21] (Matvey, 5. 23-24). Bu prinsiplər islamda da öz əksini tapmışdr. Bütövlükdə xristianlığın və islamın etik sisteminin müqayisəli təhlili hər iki dinin mənəvi əsaslarının əsasən uyğunluğunu təsdiq edir. Bu prinsiplər xristianlıqda tezis formasında və ya müəyyən qaydada İncil kitablarında, islamda isə peyğəmbərin hədislərində verilmişdir.

İkinci fəslin ikinci yarımfəsli “Apostolların etik prinsipləri” adlanır. Araşdırmamız göstərdi ki, ayr-ayrılıqda İncillərin etikası və apostolların etikası, onlar tərəfindən təbliğ olunan mənəvi dəyərlər haqqında danışmaq düzgün deyildir. Bütövlükdə Əhdi-Cədid etikası haqqında danışmaq daha məqsədəuyğundur. Apostollar Xristin elan etdiyi yeni mənəviyyatı yaymışlar. İncil mənəviyyatının əsas prinsipləri birmənalı olaraq İsusun özü tərəfindən müəyyən edilmişdir və onlarda ikimənalılıq və müvafiq təfsir nəzərdə tutulmur. İsusun xütbələrinin ən mühüm xüsusiyyəti Əhdi-Ətiq əxlaqının ardıcıl şəkildə və əhəmiyyətli dərəcədə “dəf edilməsidir”. Bu kontekstdə *inkar* sözü çox kəskin görünə bilər. Lakin bunu işlətmək yerinə düşərdi. Dağdakı xütbədə İsus hər dəfə “sizə .... deyilmişdi, amma mən deyirəm” formulundan istifadə edən zaman faktiki olaraq Tövrat prinsiplərini inkar edir.

İsusun dediyinə görə, ondan sonra *apostollar* adlanan şagirdləri İncili dünya xalqları arasında təbliğ etməyə başladılar. Dörd kanonik İncildən sonra Əhdi-Cədidin kitabı “Müqəddəs apostolların əməlləri” adlanır. Bu kitabda tezis formasında verilmiş davranış prinsipləri yoxdur. Orada apostolların fədakar fəaliyyətindən söhbət açılır. “Əməllərin” əsas ideyası İncil həqiqətlərinin təbliğindən deyil, daha çox Allaha xidmət yolunda sədaqətin və tam cəfakeşliyin zəruriliyindən ibarətdir. Apostolların “Əməllər” təsvir olunmuş çoxsaylı igidliklərinə baxmayaraq, bu kitabın əsas məğzi, zənnimizcə, insanlığa çağırışdır. İnsan həyatının bütün tərəflərini nizamlayan ən mühüm prinsip insanlıqdır. Bu, xristianlığın sonralar demək olar ki, heç kəsin heç vaxt gözləmədiyi, əməl etmədiyi etik prinsipidir. Bizim nöqteyi-nəzərimizcə, İsus tərəfindən yaradılan bütün möcüzələr “baxın, hansı möcüzələr törənir” deməkdən ötrü

---

[21] Библия. Книги Ветхого и Нового завета М., Библейские общества 1995, стр.1015.

sadəcə göstərmək xarakteri daşımırdı. Diqqətəlayiq haldır ki, möcüzələr müstəsna olaraq insan əzablarının yüngülləşdirilməsindən ibarət idi. İsus xəstələri sağaldır, əlilləri ağır əziyyətdən azad edir, ölüləri dirildir, həyat, sağlamlıq, xoşbəxtlik bəxş edir. O da xarakterikdir ki, bu dünyanı tərk edərkən İsus öz şagirdlərinə miras olaraq həmin bacarıqları – xəstələri sağaltmaq, korların gözünə işıq vermək, cüzamlıları bu bəladan xilas etmək, ölüləri diriltmək, insanların müxtəlif əzablarını yüngülləşdirmək bacarıqlarını qoyub gedir. Bundan əlavə, onları xəbərdar edir: *"Havayı almısınız, havayı da verin"*, yəni *öz yaxşılığınıza görə heç bir bəxşiş almayın*. Bütpərəstlik dünyası qəddarlığı ilə seçilirdi. Lakin Avropalı alimlər bu qəddarlığı insanda həyatın əhəmiyyətli təzahürü kimi qiymətləndirirdilər. Bu baxımdan daha ardıcıl nöqteyi-nəzər F.Nitsşenin "Antixrist" əsərində öz əksini tapmışdır. Müəllif orada birmənalı şəkildə bəyan edirdi: "Xristianlığı bəzəmək və təmizə çıxarmaq lazım deyildir: o, bu ali insan tipinə ölümcül müharibə elan etmişdi, o, bu tipin bütün əsas instinktlərindən imtina etmişdi: bu instinktlərdən o, şər, kinli insan anlayışını ortaya çıxartmışdı: güclü insandan yararsız insan, "səfil" yaradılmışdı".[22] Apostollar insanlığın nə nəzəriyyədə, nə də praktikada tətbiq olunmayan mənəvi qanununu müəyyən etməyə çalışırdılar. "Müqəddəs apostolların əməlləri" və "Apostolların müraciəti" kimi Əhdi-Cədid kitabları antik qəddarlıqla humanist mübarizədən xəbər verir.

Nəticə hissəsində tədqiqata yekun vurulur. Burada qeyd olunur ki, etik fikrin tarixən formalaşması iki yolla gedir. Birinci yol sınaqlar və səhvlər yoludur, nəticədə ayrılıqda hər bir etnos və bütövlükdə cəmiyyət daha rasional birgəyaşayışa gəlib çıxır. Belə yol etnos mədəniyyəti müstəvisində tarixən yaranmış optimal birgəyaşayış üsulu kimi ictimailəşmə çərçivəsindən kənara çıxmır. İkinci yol, öz fəaliyyətləri ilə qəbilənin, tayfanın, etnosun, xalqın nizamsız həyatında qayda yaradan müəllimlərin, peyğəmbərlərin, qanunvericilərin bilavasitə təsiri altında mənəviyyatın formalaşdırılmasıdır. Təsadüfi deyildir ki, islamda bu nizamsız dövr cahiliyyə, yəni cəhalət adlandırılır. Xalis empirik əsasa malik olan

[22] Ф.Ницше Антихрист. Проклятие христианству. Ф.Ницше. Собр. Соч. в 2 томах. Т.2.М. «Мысль», 1990, стр. 634.

birinci yoldan fərqli olaraq, mənəvi inkişafın ikinci yolunda məntiqi cəhətdən nizamlı dünyagörüşü sisteminin mövcudluğu nəzərdə tutulur. İudaizmdə belə sistemi peyğəmbərlərin fəaliyyəti yaradır. Xristianlıqda Xristin fəaliyyəti və onun təlimatları məzmunun forma üzərində, Allaha həqiqi ibadətin formal ibadət üzərində üstünlüyü zərurətini irəli sürür. Əgər iudaizm qanunların məcmusunu ifadə edirdisə, xristianlıq dinə humanizm haqqında təsəvvürlər gətirir. İslam dini də mənəviyyatın istənilən formalizm üzərində üstünlüyünü təsdiq edir. Mənəvi əhəmiyyət kəsb edənlərdən iddialılığı, ifratçılığı, bər-bəzəyi kənarlaşdırmağı, artıq olanlardan yaxa qurtarmaq fikrini irəli sürür. Əməli davranış normaları nöqteyi-nəzərindən, xristianlıq və islam xeyli sayda ümumi cəhətlərə malikdir. Bu dinlərin ən mühüm mənəvi-əxlaqi prinsipi Uca Allah naminə öz yaxınına qarşı xeyirxahlıq etməyin zəruriliyindən ibarətdir. Xristianlığın və islamın etik normaları əsasən uyğun gəlir. Bununla bərabər, əhəmiyyətli fərqlər də vardır ki, onun da əsasında Xristin xristianlar tərəfindən ilahiləşdirilməsi, islamda isə hər hansı şəxsin ilahiləşdirilməsinə qarşı qəti qadağanın olması dayanır.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. Şərq məkanında islami dəyərlər. Akademik Vasim Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Beynəlxalq elmi konfransın materialları, Bakı, 27-28 iyun 2013-cü il, səh. 785-786.
2. Wielokulturovosc w Azerbejdzanie. Wokol problem tolerancji religiynej. Materialy III konferencji naukowej Azerbejdzan-Polska. Azərbaycan – Polşa III elmi Beynəlxalq konfransın materialları, Varşava – 2014, səh. 242-246.
3. Azərbaycanda multikulturalizm. Dini tolerantlıq probleminə dair Beynəlxalq elmi konfrans, Bakı Slavyan Universiteti. Ulu öndər H.Əliyev irsində multikultural dəyərlər. Bakı, 2016, səh. 27-28.

4. Развитие христианской нравственности в посланиях апостолов. “Elmi əsərlər” Beynəlxalq elmi-nəzəri jurnal, №1 (32). AMEA Fəlsəfə İnstitutu. Bakı, 2019, səh. 149-152.
5. Этические нормы в хадисах пророка. AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. “Şərq araşdırmaları”, №1. Bakı, 2019. səh. 210-215.
6. Этическое содержание заповедей блаженства. AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. “Şərq araşdırmaları”, №2. Bakı, 2019 (çapda).
7. Кременецкие компаративные студии IX выпуск, Кременец, 2019, стр. 332-342.
8. Нравственность и этика в исламе. «Гілея» Науковий вісник. Філософські науки. Украинская Академия наук. Выпуск 160. № 1-2 Киев, 2021. стр. 6-13 (PDF).

Dissertasiyanın müdafiəsi "7" 12 2021-ci il tarixində saat 11 da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD-4.03 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., Əhməd Cəmil küçəsi 41A, Az 1141. Azərbaycan İlahiyyat İnstitutu

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "5" 11 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.11.2021

Kağızın formatı: A5

Həcm: 39206

Tiraj: 30